## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

# AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASININ ELMİ FƏALİYYƏTİNİN DÜNƏNİ VƏ BU GÜNÜ

**Dilqəm Quliyev,**
*ADBTİA-nın professoru*
E-mail: mr.quliyev.d@mail.ru

**Rəyçılər:** *prof.* X.K. Qurbanov,
*prof.* Q.M. Cəfərov

***Açar sözlər:*** *ali təhsil, akademiya, bədən tərbiyəsi, müəllim, tələbə, elmi mühakimələr, tədqiqat və inkişaf, tədris resursları, beynəlxalq təcrübə*

***Ключевые слова:*** *высшее образование, Академия, физическая культура, педагог, студент, научные обсуждения, исследование и развитие, учебные ресурсы, международный опыт*

***Key words:*** *high education, Academy, physical training, teacher, student, scientific discussions, research and development, training resources, international experience*

Azərbaycanın ali təhsil müəssisələri içərisində xüsusi yeri olan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının əməkdaşları yüksək ixtisaslı bədən tərbiyəsi mütəxəssisləri hazırlamaqla yanaşı beynəlxalq miqyaslı elmi-tədqiqat işləri də yerinə yetirir. Respublikada elm siyasətinin əsasını qoyan Ulu öndər Heydər Əliyevin kursunu uğurla və ləyaqətlə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev son illər ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması və modernləşdirilməsi, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara daim qayğı göstərilməsi, cəmiyyətdə alimlərin, elm və təhsil işçilərinin nüfuzunun artırılması və Azərbaycanda alınmış elmi nəticələrin xaricdə tanıdılması sahəsində bir sıra mühüm qərarlar qəbul etmişdir. Təsadüfi deyil ki, XXI əsr YUNESKO tərəfindən elm və təhsil əsri adlandırılmışdır. Bu baxımdan hazırda elm və təhsilin əlaqələndirilməsi, bir-biri ilə inteqrasiya olunmuş şəkildə, müasir texnologiyaların və innovasiyaların tətbiq edilməsi yolu ilə inkişaf etdirilməsi ən aktual və prioritet məsələdir.

Ulu öndər Heydər Əliyev milli mənafeləri daim uca tutmuş, totalitar rejimin təzyiqlərinə baxmayaraq, mill-mənəvi dəyərlərimizi qorumaqla, tərəqqiyə, elm və təhsilin yüksəldilməsinə nail olmaq üçün düşünülmüş siyasət yeritməyə nail olmuşdu. Ulu öndərin rəhbərlikdə olduğu birinci mərhələdə (1969-1982-ci illər) Azərbaycan dövlətinin diqqət mərkəzində duran ən ümdə məsələlərdən biri, illərlə və böyük zəhmət hesabına qazanılmış elmin, təhsilin inkişafına qayğının artırılması idi. Xalqımızın ümummilli lideri Heydər Əliyev təhsilə son məqsəd, nəticə kimi deyil, vasitə kimi baxırdı. Dahi şəxsiyyət dünya praktikasını və yerli xüsusiyyətləri nəzərə almaq, təhsil sahəsində hər hansı bir islahatı hərtərəfli və mütəşəkkil şəkildə həyata keçirmək zərurətini qeyd edərək deyirdi: "Biz təhsil sahəsində yeniliklərin tərəfdarıyıq, dünya təcrübəsindən səmərəli istifadə etməyinizi sizdən tələb edirik. Ancaq bu işlər gərək sistemli olsun. Bu işləri görərkən siz onların yaxın və uzaq zamanda nəticələrini mütləq nəzərə almalısınız".

Ulu öndər bütün sahələrə, o cümlədən bədən tərbiyəsi və idmanın elmi cəhətdən inkişafına, tədqiqinə ciddi yanaşırdı. 1975-ci ildə Respublika İdman Komitəsinin nəzdində bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən elmi-tədqiqat işinin əlaqələndirmə mərkəzi, iki laboratoriyası olan elmi-metodik kabinet yaradılmışdı. Elmi-metodik kabinet hər kvartalda bir dəfə metodik tövsiyələr məcmuəsi dərc etdirirdi. Bu, elmi adı və dərəcəsi olan mütəxəssislər hazırlanması işində, məşqlərin elmi əsaslar üzərində aparılmasında irəliyə doğru atılan mühüm addım idi.

1976-cı ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda Fiziki tərbiyə və ibtidai hərbi hazırlıq şöbəsinin açılması respublikada fiziki tərbiyə sahəsində aparılan pedaqoji tədqiqatlara, fiziki tərbiyənin cəmiyyətdə rolu-

nun yüksəldilməsinə böyük təkan verdi. Burada məktəblilərin fiziki tərbiyə sahəsinin elmi əsasları, ümumtəhsil məktəbliləri üçün fiziki tərbiyə üzrə metodik vəsaitlər hazırlanırdı. 1976-cı ildən "Azərbaycan məktəbi" jurnalının əlavəsi - "Məktəbdə bədən tərbiyəsi" məcmuəsinin nəşrinə başlanıldı. 1978-ci ildə SSRİ-nin 50 illiyi adına Xarici Dillər İnstitutunun bazasında bədən tərbiyəsi və idman problemləri üzrə ilk respublika elmi konfransı keçirildi. 1979-cu il aprel ayının 24-dən 27-dək Bakıda təşkil edilən "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri" adlı ümumittifaq elmi-praktik konfrans Azərbaycanın idman həyatında mühüm hadisə oldu.

1980-ci ildə Azərbaycan Pedaqoji İnstitutunda tələbələrin fiziki tərbiyəsi və onların idman ustalığının artırılması problemləri üzrə ikinci respublika elmi konfransı, habelə "Azərbaycan SSRİ-nin ali məktəblərində bədən tərbiyəsi və idman" mövzusunda birinci respublika sərgisi keçirildi. Həmin dövrdə respublikanın ali məktəblərindən 265 bədən tərbiyəsi müəllimi ixtisasını artırmaq kursu keçmişdi.

1981-ci ildə bədən tərbiyəsi və idmanın inkişafında, bu sahədə tədqiqat işlərinin aparılmasında fəallıq göstərən ali təhsil ocaqlarından biri də Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (ADBTİA) idi. Bu Akademiya hələ 30-cu illərdən başlayaraq milli elmi-pedaqoji kadrların hazırlanmasında yaxından iştirak edirdi. Digər ali məktəblərdə olduğu kimi, burada da zəngin təcrübə toplamış, yaşlı nəslə mənsub görkəmli pedaqoq alimlərlə yanaşı, gənc, istedadlı müəllimlər çalışırdılar. Onların səyi nəticəsində, 1936-cı ildən sonra burada bədən tərbiyəsi və idmanla bağlı tədrislə bərabər, maraqlı elmi axtarışlar da aparılırdı. Elmi axtarışların əksəriyyətində yenilik ruhu, tələbkarlıq əzmi duyulurdu. Məsələn, Akademiyanın məzunu Emin Rəhimov Moskvada "Azərbaycan milli güləşinin tarixi" mövzusunda ilk namizədlik dissertasiyası (1948) müdafiə etmişdi. Həmin dissertasiya hazırda ADBTİA-nın muzeyində saxlanılır. Ali təhsilli bədən tərbiyəsi müəllimləri dedikdə özünün sağlam fiziki hazırlığı ilə yanaşı, fiziki tərbiyənin pedaqoji, psixoloji, fizioloji və tibbi aspektlərinə, habelə təlim metodlarına dərindən və hərtərəfli yiyələnmiş kadrlar nəzərdə tutulur.

Cədvəl № 1.

**1930/1940-cı tədris illərində Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutun kadr hazırlığının ümumi cədvəli**

| Nömrə | Buraxılış ili | Məzun | Kişi | Qadın | Azərbaycan | Rus | Gürcü | Başqa millət | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1-ci il | 1933 | 39 | 33 | 6 | 6 | 21 | 3 | 9 | 117 |
| 2-ci il | 1935 | 47 | 33 | 14 | 2 | 24 | 5 | 16 | 141 |
| 3-cü il | 1936 | 24 | 12 | 12 | 1 | 11 | 1 | 11 | 72 |
| 4-cü il | 1937 | 40 | 27 | 13 | 15 | 19 | 1 | | 120 |
| 5-ci il | 1939 | 87 | 58 | 29 | 21 | 42 | 9 | 15 | 261 |
| 6-cı il | 1940 | 69 | 68 | 1 | 10 | 30 | 7 | 22 | 207 |
| 7-ci il | 1940 | 28 | 24 | 4 | 13 | 8 | 2 | 5 | 84 |
| Diplomsuz | | 17 | 12 | 5 | 4 | 6 | 2 | 5 | 51 |
| Yekun | | 351 | 267 | 84 | 72 | 161 | 30 | 88 | 1053 |

**Qeyd: 1. S.M. Kirov adına ADBTİ 08.11.1930-cu ildə yaranıb.**
**2. 1934 və 1938-ci illərdə buraxılış olmayıb.**
**3. 1940-cı ildə iki buraxılış olmuşdur.**

Diaqram 1.

**1930/1940-cı tədris illərində Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutun kadr hazırlığının ümumi dinamikası**




Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyanın elmi istiqamətdə tam fəaliyyətin əsası 60-cı illərdə qoyulub. Həmin ildən Akademiyanın əməkdaşları elmi-tədqiqat işlərinin təşkili və aparılması ilə daha yaxından məşğul olmağa başlamışlar. Bu dövrdə akademiyanın kafedraları elektron cihazlarla təmin edilmişdi. Bu isə tədqiqatların metodikasını elmi-texniki səviyyədə işləyib hazırlamağa imkan verir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyası təkcə idmançılar hazırlamır, eyni zamanda, burada yüksək ixtisaslı bədən tərbiyəsi mütəxəssisləri hazırlayan əsaslı tədqiqatlar aparılır, dərsliklər və metodiki tövsiyələr yazılır.

Bu idman ocağının professor-müəllim heyəti bədən tərbiyəsi və idmanın aktual problemlərinə həsr olunmuş müxtəlif mövzularda elmi işlər üzərində çalışırdılar. Onlar idmanın ayrı-ayrı növləri üzrə respublikanın yığma komandalarına müntəzəm elmi-metodiki köməklik göstərirdilər. Məsələn, fiziologiya kafedrasında müxtəlif illərdə "Yüksək dərəcəli idmançıların hazırlıq sisteminin təkmilləşdirilməsi" problemi üzrə əsaslı tədqiqat işləri aparılmışdı. Kafedranın əməkdaşları prof. Rafiq Qayıbov, dosent Mir Qarayev, Dilsuz Novruzov, Hüseyn Həsənov, Əsmər Seyidzadə, Ellada Sadıqova həmçinin digərləri respublika və ümumittifaq səviyyəli konfranslarda, fizioloqların qurultaylarında, beynəlxalq konqreslərdə çıxışlar edirdilər.

Sonrakı illərdə kafedranın tələbələri müəllimlərin rəhbərliyi altında bir çox eksperimental tədqiqatlar aparmışlar. Həmin tədqiqatçıların nəticələri ümumittifaq və respublika tələbə elmi konfranslarında, müsabiqələrdə yüksək qiymətləndirilmişdir. Bu sahədə məhsuldar işinə görə dos. Hüseyn Həsənov Azərbaycan SSR Təhsil Nazirliyinin medalı ilə, Mir Qarayev isə SSRİ Təhsil Nazirliyinin "Tələbələrin elmi-tədqiqat işlərində müvəffəqiyyətinə görə" nişanı ilə təltif olunmuşlar.

Təhsil, elm və idman sahəsində akademiyanın əməkdaşları beynəlxalq elmi konfranslarda, idman mütəxəssislərimiz isə idman işləri üzrə xarici ölkələrə kömək məqsədi ilə dəfələrlə dəvət olunublar. Onlardan voleybol və həndbol kafedrasının dos. Sadıqova Validə Əliağa qızı, Kondruşkina L.Sergeyevna, və başqaları, dos. İbrahimova Nigar Məhəmməd qızı 1996-cı ildə Pakistanda idman oyunları üzrə İslam ölkələri qadınlarının Olimpiadasına haxırlıq məşğələləri aparmışlar." İdman oyun növləri" fakültəsinin dekanı, prof. Qktay Mirzababa oğlu Ağayev 1969-71-ci illərdə İrakın (Voleybol növü üzrə) yığma komandasında baş məşqici, 1977-80-ci illərdə isə kuveytin yığma komandasında baş məşqçi işləmişdir. Bədən tərbiyəsi nəzəriyyəsi bə metodikası kafedrasının müdiri vəzifəsində çalışmış, prof. Hənifə Qurbanov 1994-cü ildə Türkiyənin "Trabzon" Şəhərinin "Qara Dəniz Texniki Universitetində", 1995-ci ildə "Kayseri" şəhərinin "Ergiyes" Universitetində müəllim işləmişdir.

Gimnastika və onun metodikası kafedrasının baş müəllimi Əliyeva Sara Əli qızı 1991-92-ci ildə Gənclər İdman Nazirliyinin qərarına əsasən İran İslam Respublikasının Təbriz şəhərində gimnastika idman növü üzrə, 1992-ci ilddə Həndbol idman növü izrə Sadıqova Validə Təbriz şəhərində, Rzayeva Zeynab Hüseyn qızı

1992-94-cü illərdə Təbriz şəhərində gimnastika üzrə məşqci işləmişlər. Güləşmə kafedrasının dosenti, Firdosi Tağıyev 1998-99-cu illərdə veteranlar arasında dünya çempionu, 1985-88-ci illərdə əlcəzairin Tizi-Uzu şəhərində cüdo idman növü üzrə baş məşqçi işləmişdir. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası kafedrasının dosenti X.Q. Zülfüqarov 1967-70-ci illərdə Konqo Brazavil şəhərində, 1975-78-ci illərdə isə Cad şəhərində voleybol üzrə məşqci işləmişdir. Rus dili kafedrasını müdiri vəzifəsində çalışmış dosent Əliyev Arif Əli oğlu 1992-93-94-95-ci illərdə Türkiyənin Ankara şəhərinin İstanbul və Kayseri şəhərində kecirilən elmi-praktik konfranslarda iştirak etmişdir.

Akademiyanın əməkdaşları elmi-tədqiqat işlərində alınmış nəticələrin praktikada tətbiqinə, həmçinin respublika seçmə komandalarının Avropa, dünya çempionatlarında və Olimpiya oyunlarında müvəffəqiyyətli çıxış etmələri üçün çalışırdılar. Məsələn, fiziologiya kafedrasının müdiri prof. Rafiq Qayıbovun rəhbərliyi ilə ustalardan ibarət "Neftçi" futbol komandasında ilk dəfə elmi-metodiki iş tətbiq edilmişdi (1980-1983).

1981-ci ildən başlayaraq tələbələrimiz "Tələbə və elmi-texniki tərəqqi" devizi altında keçirilən Ümumittifaq Tələbə Olimpiadalarında iştirak edirdilər. 1986-cı ildən etibarən isə ADBTİ bu olimpiadanı keçirən baza məktəbinə çevrilmişdi. Olimpiadada çıxış edən institutun əməkdaşlarından prof. R. Qayıbovun, dosentlərdən K. Rzayev, E. Acalov, D. Novruzov, Y. Talıbov və M. Qarayevin və b. elmi-tədqiqat işləri indi də əhəmiyyətini itirməyib.

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin bədən tərbiyəsi və idmana diqqəti və qayğısı nəticəsində 1970-1989-cu illərdə akademiyanın 45 idmançı kadrı Moskva və başqa şəhərlərdə təhsil almış, müxtəlif mövzularda fəlsəfə üzrə doktorluq dissertasiyaları müdafiə etmişdilər.

Cədvəl № 2.

**ADBTİA-nın əməkdaşlarının (bədən tərbiyəsi və idman sahəsində) fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi alanların siyahısı (1950-1990-cı illər)**

| İllər | 1 | | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 0 | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1940 | | | | | | | | 1 | | | 1 |
| 1960 | 1 | | | 1 | | | 4 | | | | 6 |
| 1970 | 1 | 2 | 4 | 2 | 4 | | 1 | 3 | 1 | | 18 |
| 1980 | 3 | 1 | 4 | 2 | 1 | 5 | 5 | 4 | 2 | | 27 |
| 1990 | | | | | | | | | | 2 | 2 |
| Ümumi | 4 | 3 | 8 | 5 | 5 | 5 | 10 | 8 | 3 | 2 | 54 |

**Qeyd: Cədvəldə, yuxarıdakı tək rəqəmlər onilliklərin göstəricisidir. (Məsələn, 1940 yuxarıdakı 1 rəqəm 1941, 2 rəqəm 1942-ci il və s. bildirir).**

Bu təhsil ocağı 1933-1990-cı tədris illərində 22446 nəfər mütəxəssis hazırlamışdır (onlardan 9112 - kişi, 1811 - qadın, 600 Azərbaycanlı qadındır).

Akademiya bədən tərbiyəsi və idman sahəsində mühüm elmi mərkəz və tədris ocağına çevrilmişdi. Burada 1990-cı illərdə 2 minə yaxın tələbə təhsil alırdı (onlardan 186-ı qızlar idi). Tələbələrin təhsili, idman və elmi işləri ilə 211 nəfər professor-müəllim məşğul olurdu. Onlardan 5-i elmlər doktoru, 11-i professor, 1-i fəxri professor, 84-ü elmlər namizədi-dosent, 110-u baş müəllim və müəllim idi. Həmin dövrdə tələbələrin idman sahəsində göstərdikləri nailiyyətlər belə idi: 2 nəfər beynəlxalq dərəcəli idman ustası, 70 nəfər idman ustası, 364 tələbə isə idman ustalığına namizəd normasını yerinə yetirmişdi. Pedaqoji kafedralarda 5 professor, 23 əməkdar məşqçi, 10 elmlər namizədi, 21 dosent, 33 respublika dərəcəli hakim, 6 beynəlxalq dərəcəli hakim, 38 idman ustası, 13 fəxri idman ustası, 5 əməkdar idman xadimi çalışırdı.

Ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra da bu ənənəsinə sadiq qalaraq həm keçmiş Sovet İttifaqına daxil olan ölkələrlə, həm də dünyanın digər qabaqcıl ölkələri ilə elm, mədəniyyət, idman və təhsil sahələrində əlaqələri bərpa etdi. Həmin ölkələrdə gənclərimizin dünya standartlarına uyğun keyfiyyətli təhsil almalarına şərait yaratdı.

Akademiyanın fəaliyyət göstərdiyi bu illər ərzində bədən tərbiyəsi və idman sahəsində

əsaslı tədqiqatlar aparılmış, metodiki tövsiyələr işlənib hazırlanmışdır. 1998-ci ildə akademiyanın bazasında Milli Olimpiya Akademiyası yaradılmışdır və o, ölkəmizdə Olimpiya ideyalarını, sağlam həyat tərzini, ədalətli oyun və davranış qaydalarını gənclər arasında, ümumiyyətlə, əhali arasında təbliğ etməyi öz üzərinə götürmüşdür. 1999-cu ildən Milli Olimpiya Akademiyası ənənəvi olaraq "Olimpizmin tarixi və fəlsəfəsi" üzrə konfrans keçirir, bu konfranslarda Rusiyanın və Gürcüstanın Milli Olimpiya Akademiyalarının nümayəndələri də iştirak edirlər.

Son 5 ildə, yəni 2007-2011-ci illərdə ADBTİA-nın kafedralarında müasir tələblərə cavab verən 17 adda dərslik qriflə, 1 dərslik qrifsiz, 54 adda dərs və tədris-metodik vəsait qriflə, 40 adda vəsait isə qrifsiz çap olunub, tələbələrə təqdim edilmişdir.

Cədvəl № 3.

**2010/2011-ci tədris ilində bakalavriat üzrə məzunların dövlət imtahanlarının nəticələri aşağıdakı kimi olmuşdur**

| Məzunların sayı | | İmtahan verənlərin sayı | | Dövlət imtahanının nəticələri | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Əla % | | Yaxşı % | | Kafi % | | Qeyri-kafi % | |
| Əyani | 658 | 658 | 100% | 103 | 15,6 | 267 | 40,5 | 288 | 43,7 | - | - |
| Qiyabi | 255 | 254 | 99,6% | 31 | 12,2 | 112 | 44 | 111 | 43,7 | | |

Diaqram 2.

**2010/2011-ci tədris ilində bakalavriat üzrə məzunların dövlət imtahanlarının qrafiki**




2011-2012-ci tədris ilində Azərb.DBTİA-nın professor-müəllim heyəti 252 nəfər təşkil edib. Bunlardan 2 (0,7%) nəfəri elmlər doktoru, 19 nəfəri (7,5%) professor, 56 nəfəri (22,2%) dosent, 66 nəfəri (26,1%) elmlər namizədidir. Əməkdaşların 162 nəfəri (64,2%) tam ştatdadır. 24 nəfər (9,5%) müəllim əvəzçiliklə işləyir.

Cədvəl № 4.

**2011/2012-ci tədris ilində İdman Akademiyasında çalışan müəllimlərin yaş tərkibi aşağıdakı vəziyyətdə olmuşdur**

| Yaş həddi | Müəllimlərin sayı |
|---|---|
| 35 yaşadək | 33 nəfər |
| 36-40 yaşadək | 27 nəfər |
| 41-50 yaşadək | 55 nəfər |
| 51-64 yaşadək | 77 nəfər |
| 65-70 yaşadək | 27 nəfər |
| 71-75 yaşadək | 28 nəfər |
| 76-dan yuxarı | 5 nəfər |
| Cəmi | 252 nəfər |

Cədvələ nəzər yetirdikdə məlum olur ki, 40 yaşına qədər, yəni gəncliyi təmsil edən müəllimlərin sayı 60 nəfərdir. Bu əməkdaşların ümumi sayının 23,8%-ni təşkil edir. Orta yaş səviyyəsində olan, yəni 41 yaşından 64-dək olan müəllimlər 132 nəfər təşkil edir. Bu da professor-müəllim heyətinin 52,3%-dir. Yuxarı yaş həddində (65 yaşdan çox) olanlar müəllim kollektivinin 23,8 faizini təşkil edir.

İdman Akademiyası müəllimlərinin bir nəfəri «Əməkdar elm xadimi», 3 nəfəri «Şöhrət ordeni», 13 nəfəri «Əməkdar bədən tərbiyəsi və idman xadimi», 19 nəfəri «Tərəqqi» medalı, 31 nəfəri «Əməkdar müəllim», 47 nəfəri «Əməkdar məşqçi», 34 nəfəri «Fəxri bədən tərbiyəsi və idman işçisi» adlarına layiq görülmüş, 74 nəfəri Beynəlxalq və respublika dərəcəli hakim, 76 nəfəri isə Beynəlxalq dərəcəli və ya adi idman ustasıdır.

Azərb.DBTİA-da müəllimlərin ixtisaslarının artırılması ilə bağlı müəyyən işlər görülmüşdür. Hər il ən çox nəzəri kafedraların əməkdaşları Bakı Slavyan Universiteti və Azərbaycan Müəllimlər İnstitutunun təşkil etdiyi 3 aylıq ixtisasartırma təhsilinə göndərilir. İxtisasartırma kursları hər tədris ilində 2 dəfə təşkil olunur: I çağırış ixtisasartırma – sentyabrdan dekabr ayına qədər, II çağırış fevral ayından may ayınadək keçirilir. İdman Akademiyasında son 5 tədris ilində əməkdaşların ixtisasartırma təhsilinə cəlb edilməsi vəziyyəti aşağıdakı kimidir:

Göründüyü kimi, son 5 tədris ili üzrə Akademiyanın 18 nəfər müəllimi ixtisasartırma kursuna cəlb olunmuşdur.

ADBTİA-nın kafedralarında dörd istiqamətdə elmi-tədqiqat işləri aparılır. Bunlar:

**1.** Kütləvi bədən tərbiyəsi və idman – tərbiyənin, təhsilin və sağlamlığın əsas amilidir.

**2.** Yüksək dərəcəli idmançıların hazırlıq sisteminin təkmilləşdirilməsi.

**3.** Bədən tərbiyəsi və idman sahəsində – kadr hazırlığının və ixtisasın artırılması sisteminin təkmilləşdirilməsi.

**4.** Bədən tərbiyəsi və idmanın – təşkili, idarə olunması və iqtisadiyyatı. Bu istiqamətdə 1 kafedra ETİ aparır.

Beynəlxalq əməkdaşlıq.

ADBTİA beynəlxalq universitetlərlə də idman əlaqələri yaratmış və bu əlaqələr günü-gündən genişlənməkdədir.

1992-ci ildən Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti dövlətləri arasında bağlanmış təhsil sahəsində müqaviləyə əsasən, Türkiyə vətəndaşları akademiyamızın «Bədən tərbiyəsi və idman müəllimi» fakültəsinə təhsil almağa başlamışlar. İndiyə kimi 278 Türkiyə vətəndaşı akademiyamızın məzunu olmuşlar (270 bakalavr, 8 magistr). 3 magistr isə İran İslam Respublikasının vətəndaşları bitirmişlər.

ADBTİA beynəlxalq universitetlərlə idman əlaqələri yaratmış və bu əlaqələr günü-gündən genişlənməkdədir. Bolonya prosesi bu gün qloballaşan təhsil sahəsi üzrə Avropa birliyi məkanında baş verən prosesdir. Bu prosesə əsas səbəb 19 iyun 1999-cu ildə 29 Avropa dövlətləri tərəfindən keçirilən təhsil Nazirliyinin görüşündə qəbul olunmuş Bolonya Deklarasiyası olmuşdur. Bolonya Deklarasiyasının əsas məqsədi Avropa təhsil müəssisələrində tələbələrə verilmiş biliklərin həyata keçirilməsini təmin etmək, eyni zamanda dünya səviyyəsində Avropa təhsilinin rəqabətliyini artırmaqdan ibarətdir.

17-20 sentyabr 2008-ci il tarixdə İran İslam Respublikası Tehran Universitetin idman elmləri fakültəsinin nümayəndə heyəti universitetin professoru doktor Vahid Sarı, elmi katib doktor Cəfər Sadiq, biomexanika fənni üzrə mühazirəçi xanım Şirin Yazdani və əlaçı tələbə Zəhra Rüstəmi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında olmuş və Akademiyanın fəaliyyəti ilə tanış olmuşlar. Görüş qarşılıqlı marağa səbəb olmuş, gələcəkdə bədən tərbiyəsi və idman təhsili ilə bağlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi məsələləri dəstəklənmiş, geniş fikir mübadilələri aparılmışdır. Həmçinin əməkdaşlar Akademiyada fəaliyyət göstərən muzey və idman zallarında olmuş, nəzəri və praktik dərslərdə iştirak etmişlər

ADBTİA-da beynəlxalq əlaqələr, əsasən, müxtəlif ölkələrlə, xüsusilə Türkiyə Xalq Cümhuriyyəti və İran İslam Respublikası ilə tələbə mübadiləsi, beynəlxalq forumlarda, konqreslərdə, simpoziumların işində iştirak etmək, beynəlxalq və regionarası proqramlara qoşulmaq, onların iş təcrübəsini Azərbaycan Dövlət Bədən Tər-

biyəsi və İdman Akademiyasının həyatına tətbiq etmək istiqamətində iş görülür.

Akademiyada, həmçinin, bədən tərbiyəsi və idman sahəsində Avropada hazırlanan ixtisasların Azərbaycanın əmək bazarına müvafiqliyi araşdırılır. Yaxın gələcəkdə əmək bazarının tələblərinə müvafiq ixtisasların Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında açılmasını əsaslandıran hüquqi sənədlər Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunacaqdır. Həmin ixtisaslar üzrə Almaniyanın Köln İdman Universitetində, eləcə də Rusiya Dövlət Bədən Tərbiyəsi və İdman Universitetlərində mütəxəssislərin hazırlanması təcrübəsi bu işin həyata keçirilməsini xeyli asanlaşdıracaqdır.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının diplomları bütün Avropa ölkələri tərəfindən tanınır. Akademiyanın beynəlxalq proqramlarda iştirakı 3 istiqamətdən təyin olunmuşdur: 1-ci istiqamət Akademiya əməkdaşlarının xarici ölkə mətbuatında elmi məqalələr və metodik vəsaitlərin çapı ilə əlaqədardır. Məsələn, son beş ildə Akademiyanın 29 əməkdaşının Rusiya Federasiyası, Gürcüstan, Ukrayna, Yunanıstan, Bolqarıstan, Türkiyə Cümhuriyyəti, Polşa, Belarusiya kimi ölkələrin nüfuzlu jurnallarında və elmi dərgilərində 56 adda məqalə və metodik vəsaiti çap olunmuşdur. 2-ci istiqamət əməkdaşların xarici ölkələrdə keçirilən konqres, simpozium, elmi-praktik konfranslarda iştirakı ilə əlaqədardır. Belə ki, Akademiyanın əməkdaşlarından 11 nəfəri Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti, İngiltərə, Ukrayna və Fransa Respublikasında keçirilən konqres, simpozium, elmi-praktik konfranslarda çıxış etmişlər.

Nəhayət, sonuncu istiqamət, müəllimlərin xüsusilə, idman-pedaqoji kafedra əməkdaşlarının xarici ölkələrdə ayrı-ayrı idman növləri üzrə keçirilmiş mötəbər yarışlara hakimlik etmələri ilə bağlıdır. Son beş ildə İdman Akademiyasının 12 müəllimi Rusiya Federasiyası, Qazaxıstan, İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti, Almaniya, Belarusiya, Litva, Çexiya, Yunanıstan, Ukrayna, Avstriya, Malaziya, Özbəkistan, Rumıniya, Slovakiya, Norveç, Estoniya, İsrail, BƏƏ, Gürcüstan, Fransa Respublikası, İtaliya, Danimarka, Meksika və Bolqarıstanda müxtəlif idman növləri üzrə təşkil edilmiş Dünya və Avropa çempionatları, Dünya kuboku kimi çox nüfuzlu yarışlara bacarıqla hakimlik etmişlər.

Cari tədris ilində ADBTİA-nın tələbələrindən xarici ölkələrdə təhsil alan olmamışdır.

Başqa ölkə vətəndaşlarından İdman Akademiyasında Rusiya Federasiyası, Gürcüstan, Ukrayna, İran İslam Respublikasından əyani və qiyabi şöbədə bakalavriat üzrə 13 nəfər xarici vətəndaş təhsil alıb. Magistratura dərəcəsi üzrə isə əyani və qiyabi təhsil formasında 2 nəfər Türkiyə Cümhuriyyəti və 2 nəfər də İran İslam Respublikası vətəndaşı təhsil alırdı.

Akademiyamızda bir çox Azərbaycanın və xarici ölkələrin tanınmış nümayəndələri ilə görüşlər keçirilmişdir. Ali məktəblərimiz arasında əlaqələrin möhkəmləndirilməsi və gələcəkdə bu tədris ocağında bizim tələbələrimizin də təhsilalma imkanları ilə əlaqədar olaraq bir neçə xarici ölkələrin nümayəndələri akademiyada olub, bu barədə məsələlər müzakirə edilmişdir. Çox fərəhli haldır ki, müxtəlif ölkələrin görkəmli şəxsləri akademiyanın Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının elmi şurasının qərarına əsasən fəxri doktoru adına layiq görülmüşlər. Onlardan: 1994-cü ildə Türkiyə Cümhuriyyəti Mərmərə Universitetinin doktoru, professor Ahmət Həmdi Turqud, 1994-cü ildə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) sabit prezidenti Xuan Antonio Samaranc, 1995-ci ildə Beynəlxalq Boks Federasiyasının Prezidenti Ənvər Çoudri; 1995-ci ildə EABA-nın prezidenti Emil Jeçev, 2000-ci ildə Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roq, 2005-ci ildə beynəlxalq Taekvondo Federasiyasının prezidenti Çunq Von Ço Layiq, 2007-ci ildə FİFA-nın prezidenti Yozef Blatter, 2007-ci ildə AOK prezidenti Patrıck J.Hickey, 2007-ci ildə AİBA-nın I-vitse prezidenti Rəhimov Qafur Əhmədoviç.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının maddi-texniki bazası tədris otaqlarından, gimnastika, güləşmə, ağırlıqqaldırma, voleybol, basketbol və həndbol, boks və taekvando üzrə 9 idman zalından, güllə atıcılığı üzrə tir, üzgüçülük hovuzu və stadiondan ibarətdir.

2011/2012-ci tədris ilində Tələbələrin imtahanlarda davamiyyəti 96,2%, müvəffəqiyyət göstəricisi 93,6%, əla qiymət alanlar 43,1%, yaxşı qiymət alanlar 34,9%, keyfiyyət göstərici-

si 78,1% təşkil etmişdir. Universitet üzrə cəmi 31 tələbə (2,5%) qeyri-kafi qiymət almışdır.

2011/2012-ci tədris ilində Akademiyanı 1089 nəfər bitirmişdir. Onlardan 41 nəfəri diplom işi (layihəsi) müdafiə etmiş, 1048 nəfəri dövlət imtahanı vermişdir. Dövlət imtahanı verən 1094 nəfər tələbədən 194 nəfəri (17.7%) əla, 579 nəfəri yaxşı (53%), 321 nəfəri kafi (29.3%) almış və 1 nəfəri (2.2%) qeyri-kafi qiymət almışdır. Universitet üzrə buraxılış qruplarında keyfiyyət göstəricisi 70.6% təşkil etmişdir.

Son beş ildə buraxılışın sayı 5784 nəfər olmuşdur. Təcrübə və işədüzəltmə şöbəsinin fəaliyyəti (2008-2012-ci illər) dövründə məzunlara olan tələbat 6469 nəfər, həmin illərdə məzunların buraxılışı isə 5768 (89.1%) nəfər olmuşdur. Həmin dövrdə işə göndərilənlərin sayı 3778 nəfər (65.4%), işlə təmin olunanların sayı 2629 nəfər (45.5%), ixtisas üzrə işləyənlər 1120 nəfər (19.4%), işə düzəlmək üçün növbədə dayananların sayı isə 1006 nəfər olmuşdur.

23 dekabr 2015-ci ildə Ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən, Fuad Hacı oğlu Hacıyev Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru təyin edilmişdir.

Akademiyanın yeni rektorun fəaliyyəti nəticəsində qıssa müddətdə akademiyanın maddi-texniki bazası əhəmiyyətli dərəcədə dəyişilmiş, tədris yüksək səviyyədə təşkil olunmuş, tələbələrin dərsə davamiyyəti artmış, ən başlıcası isə rektorun Daxili İntizam Qaydalarının təsdiq edilməsi haqqında 11 fevral 2016-cı il tarixli S-08 əmrinə əsasən, təlim-tərbiyə prosesinin səviyyəsi yüksəlmişdir.

Akademiyada maddi-texniki təchizat sahəsində ən müasir texnologiyalardan istifadəyə üstünlük verilir. Görülən hər bir işdə beynəlxalq standartlar prinsipi gözlənilmiş və bu standartlara cavab verən auditoriya və laboratoriyalar yaradılır. Akademiyada foye, iclas salonu, otaqlar əsaslı təmir edilib, müasir idman kompleksi və şahmat otağı, idman muzeyi, yeməkxana, kitabxana kompleksi, yüksək informasiya texnologiyalarına əsaslanan laboratoriya və tədris kabinəsi, kompüter və təchiz olunmuş auditoriyalar yaradılır.

Son dövrlərdə baş verən bütün dəyişikliklərlə yanaşı, akademiya menecmentində keyfiyyətə nəzarətin müasir sistemlərinə də mühüm yer verilir. Burada başlıca məsələlərdən biri tələbələrin akademiyada idarəetmə proseslərinə cəlb olunur. Akademiyanın bütün strukturlarında tələbə kollektivinin iştirakı təmin edilir. Dərsə davamiyyətə nəzarət avtomatlaşdırılmış nəzarət sistemi olan işıqfor proqramı yaradılır, tələbələrlə xidmətin keyfiyyətini daha da artırmaq məqsədini daşıyan «Elektron dekanlıq» layihəsinin gerçəkləşdirməsinə başlanılmışdır. Hazırda tələbələr akademiyanın böyük Elmi şurasından tutmuş fakültələrin ictimai təşkilatları daxil olmaqla, bütün seçimli orqanlarda iştirak edirlər.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının qarşısında qoyulan böyük vəzifələrdən və təhsil islahatlarının dünya standartlarına uyğunlaşdırılması zərurətindən irəli gələrək hal-hazırda Akademiyada yenidənqurma və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində müvafiq işlər aparılır. 2016/2017-ci tədris ilində yeni tədris laboratoriyaları, elektron kitabxana, tədris proqramlarının təkmilləşdirilməsi, yerli və xarici əmək bazarında rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanması məqsədi ilə tədris bazasının gücləndirilməsi, distant və onlayn təhsilin, həmçinin İKT-nin geniş tətbiq olunması, yerli və beynəlxalq donor təşkilatların axtarılması, müvafiq xarici tədris müəssisələri ilə ikili tədrisin və qarşılıqlı proqramların təşkili, tələbə və professor-müəllim mübadiləsi, elmi-tədqiqat işlərinin aparılması, idman təhsili sahəsində yeni ixtisaslaşmaların və onlara müvafiq kafedraların yaradılması istiqamətində bir sıra işlər görülmüşdür.

Təhsil prosesinin keyfiyyətinin artırılması, eləcə də rəqəmsal resursların istifadəsinin genişləndirilməsi çərçivəsində tam funksional elektron kitabxana yaradılmışdır. Yaradılan elektron və rəqəmsal tədris materialları və metodiki resursların təhlükəsiz istifadəsi, həmçinin Akademiyanın idarə olunmasında tələb olunan bütün məlumatların yerləşdirilməsi üçün xüsusi server alınmışdır. Tələbələrin biliyinin qiymətləndirilməsi prosesində şəffaflığın, müəllim və tələbə arasında əlaqələrin effektivliyini təmin etmək məqsədilə tədris prosesində beynəlxalq SCORM standartını dəstəkləyən "Online University" sistemi adaptasiya edilmişdir. Bu sistem əyani dərslər və imtahanlardan başqa, həmçinin distant təhsil funksiyasına malikdir, tələbələr üçün

dünyanın aparıcı universitetlərin kitabxana və elektron bazalarından istifadəni mümkün edir.

Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının tövsiyəsi ilə müəllim və tələbə arasında əlaqələri asanlaşdırmaq və daha effektiv etmək üçün tədris prosesində "Online University" sistemi adaptasiya edilmişdir.

Akademiyanın ərazisində landşaft dizaynı və abadlaşdırma işlərinə başlanılmışdır. Tədrisdə informasiya-kommunikasiya texnologiyaları və internetdən geniş istifadəni təmin etmək üçün 2016-cı ilin yanvar ayından Akademiyada mövcud tədris bazanın əsaslı işlər görülmüşdür.

Akademiyada 3665 tələbə təhsil alır (fevral, 2017-ci il), onlardan 106-ı nəfəri qızdır. 221 professor-müəllim (o cümlədən 4 elmlər doktoru, 8 elmlər namizədi - professor, 36 elmlər namizədi - dosent, 6 elmlər namizədi - baş müəllim, 1 elmlər namizədi müəllim, 5 professor, 31 dosent, 100 baş müəllim, 30 müəllim.

Professor-müəllim heyəti 221 nəfər təşkil edir (may, 2017). Onlardan əsas işçi heyəti 184 nəfər, xarici əvəzçilik qaydasında işləyən 19 nəfər, daxili əvəzçilik qaydasında 18 nəfər təşkil edir.

Cədvəl № 5.

**Professor-müəllim heyətinin elmi dərəcələri haqqında məlumat (may, 2017)**

| Elmlər doktoru | | | Elmlər namizədi və ya fəlsəfə doktoru | | | | Elmi dərəcəsi olmayanlar | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| AMEA-nın üxbir üzvü | Professor | Dosent | Professor | Dosent | Baş müəllim | Müəllim | Professor | Dosent | Baş müəllim | Müəllim |
| 1 | 3 | 0 | 10 | 33 | 7 | 1 | 4 | 32 | 90 | 41 |

Diaqram 3.

**Professor-müəllim heyətinin elmi dərəcələrinin qrafiki**




ADBTİA-nın əməkdaşlarının 30 nəfər müəllim ixtisasartırma kurslarında iştirak ediblər (2016). 2016-cı ildə ixtisasartırma işinə xüsusi diqqət yetirilmişdir. Sosial elmlər kafedrasının 15 nəfər xarici dil tədris edən müəllimi "Tədris etmə biliklərinin qiymətləndirilməsi və artırılması" kurslarını bitirərək testlərini keçmişlər və onlardan 12 nəfəri artıq Cambridge Universitetinin xarici dil müəllimliyi üzrə Sertifikat almışdırlar.

Cədvəl № 6.

**Müstəqillik illərində ADBTİA-nın əməkdaşlarının (bədən tərbiyəsi və idman sahəsində) fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi alanların siyahısı (1991-2016-cı illər)**

| İllər | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 0 | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1991 | 3 | 1 | 2 | 3 | | | 1 | | 1 | | 11 |
| 2000 | | | | 2 | 1 | 1 | | 1 | 2 | | 7 |
| 2016 | 2 | | 4 | 1 | 3 | 1 | | | | | 11 |
| Ümumi | 5 | 1 | 6 | 6 | 4 | 2 | 1 | 1 | 3 | | 29 |

**Qeyd: Cədvəldə, yuxarıdakı tək rəqəmlər onilliklərin göstəricəsidir. (Məsələn, 1991 yuxarıdakı 1 rəqəm 1991, 2 rəqəm 1992-ci il və s. bildirir).**

Diaqram 4.

**Müstəqillik illərində ADBTİA-nın əməkdaşlarının pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi alanların qrafiki (1991-2016-ci illər)**




Aparılmış tədqiqatdan belə nəticəyə gəlmək olar ki, Akademiyanın kadrları illər üzrə 83 pedaqogika üzrə fəlsəfə doktoru namizədlik dissertasiyası müdafiə etmişlər. Onlardan: 69-u pedaqoji elmlər namizədi, 13-cü isə bioloji elmlər namizədi, 1-i isə texnika üzrə elmlər doktoru dissertasiyası müdafiə etmişlər. Onlardan, 60-ı - azərbaycanlı, 10-u - rus, 1-i - gürcü, 1-i isə başqa millətdəndir.

Cədvəl № 7.

**Akademiyanın professor-müəllim heyətinin yaş tərkibinin cədvəli (2016-2017-ci illər)**

| Yaş həddi | Müəllimlərin sayı |
|---|---|
| 22-30 | 10 |
| 31-40 | 40 |
| 41-50 | 45 |
| 51-60 | 61 |
| 61-65 | 30 |
| 66-dan yuxarı | 35 |
| Cəmi: | 221 |

Tələbə Elmi Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 295 nömrəli Sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirinin 27.06.2014-cü il 752 nömrəli əmri ilə təsdiq edilmiş "Tələbə Elmi Cəmiyyəti haqqında Nümunəvi Əsasnaməyə" uyğun fəaliyyət göstərir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tələbələrin elmi-tədqiqat işlərinin təşkili və əlaqələndirilməsi vəzifələrini Tələbə Elmi Cəmiyyəti yerinə yetirir. Tələbə Elmi Cəmiyyəti sabahın gənc tədqiqatçılarının həqiqi axtarış və yaradıcılıq məktəbidir. Eyni zamanda, bu cəmiyyət istedadlı və bacarıqlı tələbələrin üzə çıxarılmasında mühüm rol oynayır. Bu elmi arena tələbələrin nə qədər bilikli, bacarıqlı, elmə bağlı olmalarını nümayiş etdirmələri baxımından çox önəmlidir.

Dünyanın 60000 dən çox kitabxanasında fəaliyyət göstərən bu proqram kitabxana daxili bütün əməliyyatları avtomatlaşdırır.

Hal-hazırda kitabxana müasir kitabxanaların tələblərinə cavab verən mədəni, ünsiyyət və informasiya-məlumat vermə, müxtəlif tədbirlərin və sərgilərin keçirilməsi mərkəzinə çevrilmişdir. Bu gün kitabxanaya yalnız kitablar və dövri mətbuat materialları ilə deyil, elektron daşıyıcılar, audio və video materiallar, tam mətnli elektron resursların hazırlanması və işlənməsi üzərində işlər gedir.

Tədris ilinin əvvəlində I kurs tələbələri qısa müddətə əvvəlcədən hazırlanmış dərsliklərlə təmin olunmuşdur. Kitabxananın zəngin qəzet və jurnal fondu var. Burada 30-cu ildən başlayaraq idmana aid qəzet və jurnallar saxlanılır. Çatışmayan ədəbiyyatların elektron nüsxələri tərtib olunur və qiraət zallarında istifadə üçün nümunələr istifadəyə verilir.

Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2016-cı ilin mart-avqust aylarında Akademiyanın Strateji Planlaşdırma üzrə İşçi Qrupunun üzvləri Belarus Dövlət Bədən Tərbiyəsi Universiteti, Acıbadəm Universiteti, Hacəttəpə Universiteti (42 438 tələbə), Mərmərə Universiteti (51 000 tələbə), İstanbul Universiteti (178 901 tələbə), Ankara Universiteti (66 555 tələbə), Sofiyada "Vassil Levski" Milli İdman Akademiyası, Köln Alman İdman Universiteti (6 000 tələbə), Şeffield Hallam Universiteti( 31,500 tələbə) və Lyublyana Universitetinə (42 922 tələbə) səfər etmişlər. Səfər zamanı idman tibbi, idman menecmenti və idman jurnalistikası da daxil olmaqla bədən tərbiyəsi və idman sahəsində mütəxəssislərin hazırlanması üzrə təhsil modelini öyrənmək üçün müxtəlif görüşlər keçirilmişdir. Tədris və elmi-tədqiqat laboratoriyaların işinin təşkil edilməsinə və onların müasir təhsil prosesində rolunun öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Təhsildə keyfiyyətin artırılması, yeni proqramların yaradılması və tələbə yönümlü təhsil sisteminə keçid edilməsi üçün kineziologiya, kinezioterapiya, idman farmakologiyası, dietologiya, idman psixologiyası, fiziki reabilitasiya, idman menecmenti, idman jurnalistikası və s. kimi yeni fənlərin tədris proqramına daxil edilməsi zəruridir. Bununla yanaşı müvafiq sahələr üzrə müəllimlərin çatışmazlığı problemi xüsusi aktuallıq kəsb edir. Bu məsələ islahatların ayrıca bir hissəsini təşkil edir və bununla bağlı olaraq Strateji Planlaşdırma üzrə İşçi Qrupu yüksək ixtisaslı xarici mütəxəssislərin həm tələbələrin tədrisi, həm də yerli kadrların intensiv hazırlığı prosesinə cəlb edilməsi üçün aparıcı xarici universitetlərlə danışıqlar aparır.

"İdman menecmenti", "İdman jurnalistikası" və "İdman tibbi və reabilitasiyası" ixtisasları üzrə Akademiyanın tədris proqramının hazırlanması üçün Köln Alman İdman Universiteti ilə birgə iş barədə ilkin razılıq əldə edilmişdir. Köln Alman İdman Universitetinin professor-müəllim heyətinin Akademiyanın tədris prosesinə cəlb edilməsi üzrə növbəti addımların müzakirəsi üçün 2-5 iyun 2016-cı il tarixlərdə Akademiyada Alman İdman Universitetinin vitse-prezidenti, professor Kristofer Bruerlə bir neçə görüş keçirilmişdir. Professor Bruerin Gənclər və İdman Naziri və Təhsil Naziri ilə görüşləri zamanı Akademiyada daha çox Köln Alman İdman Universitetinin təhsil modelinə istinad etmək məqsədəuyğun hesab edilmişdir.

Bununla yanaşı növbəti dövrdə "İdman menecmenti", "İdman jurnalistikası" ixtisaslarının inkişaf etdirilməsi məqsədi ilə Birləşmiş Krallığın Şeffild Hallam Universiteti ilə çox yaxında əməkdaşlıq edilir. Akademiyanın əməkdaşları Şeffild Hallam Universitetində iş güzar səfərdə olmuş bununla yanaşı universitetin professor Martin Smith Villiamda akademiyada 1 həftəlik iş güzar səfərdə olmuşdur. Halhazırda

bütün stansiyalardan keçdikdən sonra memoradumun mətni üzərində iş gedir hansı ki yaxın zamanlarda imzalanması gözlənilələndir.

"İdman Jurnalistikası" proqramının inkişaf etdirilməsi məqsədi ilə Birləşmiş Krallığın Dan Mason media mərkəzinin rəhbəri olan Dan Masonla sıx əməkdaşlıq edilir hanski Akademiyamızda bir neçə dəfə uzun müddətli iş güzar səfərlərdə olmuş və proqramın hər tərəfli inkişaf etməsi üçün dəstəyini görsətməkdə davam etdirir. Bununla yanaşı həmdə Akademiyada "İdman Jurnalistikasının" proqram direktoru kimi çalışır.

Xərclərin optimallaşdırılması məqsədilə distant təhsilin tətbiqi və tanınması üçün hüquqi mexanizmlər işlənib hazırlanır (prosedur məsələlərinin həllinə zərurət yaranmışdır).

İdman təşkilatlarının təcrübəli menecerləri və bu sahədə öz karyerasına yeni başlayan mütəxəssislər üçün M.V. Lomonosov adına Moskva Dövlət Universiteti İqtisad Fakültəsi ilə birgə "İdman menecmenti" ixtisası üzrə ixtisasartırma kurslarının keçirilməsi barədə razılıq əldə olunmuşdur.

Təhsil səviyyəsinin artırılması məqsədilə müvafiq ədəbiyyatın alınması və onların xarici dillərdən Azərbaycan dilinə tərcümə edilməsi, eləcə də müasir tələb və standartlara cavab verən tədris və metodiki vasitələrin hazırlanmasına başlanmışdır.

Tədris prosesinin keyfiyyətinin artırılması, Akademiyanın tələbələri və pedaqoji heyətinin elmi potensialı və innovativ fəaliyyətinin stimullaşdırılması məqsədilə bədən tərbiyəsi və idman sahəsində həm yüksək keyfiyyətli təhsilə, həm də elmi tədqiqatların aparılmasına imkan yaradan müasir avadanlıqlarla təchiz olunmuş elmi-tədris laboratoriyasının yaradılması nəzərdə tutulmuşdur.

ADBTİA-da Böyük Britaniyanın Şeffild Hallam Universiteti ilə birgə idman menecmenti və idman jurnalistikası magistr ixtisasları üzrə kurikulum hazırlamışdır. Eyni zamanda, bu ölkənin Qlazqo Universiteti və London Kollec Universiteti ilə birgə idman tibbi və reabilitasiyası üzrə magistr proqramı hazırlanmışdır. Qeyd olunan proqramlar ingilis dilində və modullar əsasında tədris ediləcəkdir.

2017-ci ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) üç yeni magist ixtisasları - İdman Tibbi və Reabilitasiya, İdman Menecmenti və İdman Jurnalistikası yaradılmışdır. ADBTİA-nın tədrisi ingilis dilində olan bu ixtisaslarına qəbul olmaq istəyən bakalavrlar Dövlət İmtahan Mərkəzinin magistr imtahanın yalnız birinci mərhələsini keçmiş və Mərkəz tərəfindən birinci mərhələ üçün müəyyən edilmiş müsabiqə şərtlərini ödəmişdilər. Bakalavrlar qəbul imtahanının ikinci mərhələsi əvəzinə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəyyən etdiyi qəbul prosedurlarından keçmişdilər. Bununla yanaşı, bu ixtisasları seçən bakalavrlar TOEFL IBT (minimum 83 bal) və ya IELTS (minimum 6.5 bal) test nəticələrini təqdim etmişdilər.

1 may 2017-ci ildə Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti Morinari Vatanabe Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Fəxri doktor"u adına layiq görülüb.

Bədən tərbiyəsi və idman təhsilinin inkişafında idman tibbi reabilitasiya sahəsində mütəxəssislərinin təhsil proqamının hazırlanıb işlənməsində göstərdiyi yüksək səmərəli fəaliyyətinə görə Böyük Britaniyanın İdman Tibbi üzrə aparıcı mütəxəssisi Dr. Maykl Pol Lusmor Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Fəxri professor"u adı ilə təltif olunmuşdur.

Paralimpiya hərəkatının inkişafında və Paralimpiya ideallarının yayılmasında böyük xidmətləri, Paralimpiya təhsilinin təbliğinə verdiyi dəstəyi nəzərə alaraq 8 fevral 2016-cı ildə Cənab Ser Filip Krevenə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının " Bədən Tərbiyəsi Tarixi" kafedrasının "Fəxri professor"u adı verilmişdir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və Idman Akademiyasının elmi-tədqiqat işlərinin təşkilinin inkişaf tendensiyası elmi şəkildə araşdırılmış, onun məzmunu müəyyənləşdirilmiş və yeni modelinin forma və metodlar kompleksi araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Qarşıya qoyulan məqsədi həyata keçirməklə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının elmi-tədqiqat işlərinin təşkilinin müəyyənləşməsinə imkan yaranır, habelə yüksək dərəcəli kadrların hazırlığının müasir elmi bilik sistemində yeri, elmi quruluşu və bütövlükdə elmi sistemi aydınlaşdırılır.

Tədqiqat prosesində belə **nəticəyə** gəlmək olar ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının elmi-tədqiqat işlərinin təşkili problemi tədqiq olunur.

## ƏDƏBİYYAT


1. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (70-illik salnamə). Bakı: Adiloğlu, 2001.
2. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (85-illik salnamə). Bakı: Letterpress, 2015.
3. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında idmançı qadın kadrların hazırlanması yolları. Azərbaycan Respublikası GİN. «Azərbaycanda Bədən tərbiyəsi və idmanın inkişaf perspektivləri» elmi-praktik konfransların materialları. Bakı, 2008.
4. Абдул-Лятиф Эфенди. История шекинских ханов. Баку, 1926.
5. Георический Кавказ. Азербайджанский филиал Института истории ФзФАН. Баку, 1943.
6. Рагимов Э.Т. Азербайджанская народная борьба - «Гюлеш». Диссертация. Баку, 1948.


**Д. Гулиев**

## ВЧЕРАШНИЙ И СЕГОДНЯШНИЙ ДЕНЬ НАУЧНОЙ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ГОСУДАРСТВЕННОЙ АКАДЕМИИ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ И СПОРТА


### *РЕЗЮМЕ*

Научная политика нашей республики, успешно и достойно продолжавшаяся почтенным президентом Ильхамом Алиевым, основанная общенациональным лидером Гейдаром Алиевым, развитие науки в нашей стране за последние годы, сохранение и модернизация научно-технического потенциала, подготовка высококвалифицированных кадров в области науки и образования, оказанное им постоянное внимание и забота, эффективность учебного процесса Азербайджанской Государственной Академии Физического воспитания и спорта, научный потенциал и стимулирование инновационной деятельности студентов и педагогического состава Академии, результаты обучения в области физической культуры и спорта, а также научно-исследовательские работы в международном масштабе даны в этой статье.


**D. Guliyev**

## YESTERDAY'S AND TODAY'S SCIENTIFIC ACTIVITIES OF AZERBAIJAN STATE PHYSICAL TRAINING AND SPORT ACADEMY


### *SUMMARY*

The science policy of our republic founded by the national leader Heydar Aliyev and continued successfully and with dignity by our honourable president Mr. Ilham Aliyev, the development of science in our country during the last years, preservation and modernization of scientific-technical potential, high qualified manpower development in the field of science and education, the constant attention and concern paid to them, education process efficiency of Azerbaijan State Physical Training and Sport Academy, scientific potential and stimulation of innovative activity of the students and pedagogical staff of Academy, education results in the field of physical training and sport, as well as scientific-research works on an international scale are stated in this article.


**Redaksiyaya daxil olub:** 23.02.2018